# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Suların dövlət uçotunun Qaydası”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Suların dövlət uçotunun Qaydası”nın təsdiq edilməsi haqqında” 2000-ci il 17 yanvar tarixli 7 nömrəli və “Suların dövlət uçotunun Qaydası”nda dəyişikliklər edilməsi barədə” 2012-ci il 10 may tarixli 99 nömrəli qərarlarının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Suların dövlət uçotunun Qaydası” təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri:** **Ə.Baxşıyev**

«31» may 2012-ci il

№ 52

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2012-ci il «31» may tarixli 52 nömrəli qərarı ilə təsdiq edilmişdir

# Suların dövlət uçotunun

# Q A Y D A S I

1. Bu Qayda Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 17 yanvar tarixli 7 nömrəli qərarı ilə təsdiq edilmiş “Suların dövlət uçotunun Qaydası”na əsasən hazırlanmışdır.

2. Bu Qayda Naxçıvan Muxtar Respublikasının yerüstü və yeraltı su obyektlərinin istifadəçilərinin və dövlət monitorinqinin uçot məlumatlarına əsaslanaraq, suların dövlət uçotunun qaydalarını müəyyənləşdirir.

3. Suların dövlət uçotu müəyyən olunmuş qaydada müvafiq ərazidə mövcud olan su ehtiyatlarının kəmiyyət və keyfiyyətinin müntəzəm olaraq müəyyən edilməsindən ibarətdir.

4. Suların dövlət uçotu aparılarkən əldə edilən məlumatlar aşağıdakı tədbirlərin həyata keçirilməsini təmin etməlidir:

su obyektlərinin istifadəsi, mühafizəsi və suların zərərli təsirinin qarşısının alınmasının cari və perspektiv planlaşdırması üzrə dövlət proqramlarının işlənib hazırlanmasını;

su təsərrüfatı balanslarının tərtib edilməsi, dövlət su kadastrının aparılması və su ehtiyatlarının kompleks istifadəsi və mühafizəsi sxemlərinin işlənib hazırlanmasını;

suların keyfiyyətinin, çayların sululuğunun və hidroloji şəraitinin dəyişməsinin proqnozlaşdırılmasını;

sudan istifadə ilə bağlı sənaye, kənd təsərrüfatı, nəqliyyat və digər sahələr üzrə obyektlərin layihələşdirilməsini;

su təsərrüfatı sistemlərinin əməli idarə olunmasını;

su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində, o cümlədən suların keyfiyyət göstəriciləri üzrə normalaşdırılmanı;

suların zərərli təsirinin qarşısının alınması tədbirlərinin işlənib hazırlanmasını;

su obyektlərinin səmərəli istifadəsi və mühafizəsi tədbirləri üzərində dövlət nəzarətinin həyata keçirilməsini;

sərhəd su obyektlərinin su ehtiyatlarından istifadə və onların mühafizəsinə dair ərazilərarası su bölgüsünü və hövzədə müştərək sudan istifadənin tənzimlənməsini.

5. Suların dövlət uçotu Naxçıvan Muxtar Respublikasında vahid sistem üzrə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (yerüstü və yeraltı sular

bölmələri üzrə), Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi (suların istifadəsi uçotu bölməsi üzrə) və Fövqəladə Hallar Nazirliyi tərəfindən həyata keçirilir.

6. Naxçıvan Muxtar Respublikasının vahid dövlət su fondunu təşkil edən bütün sular su obyektləri, habelə mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq bütün müəssisələr, idarələr, təşkilatlar və digər hüquqi şəxslər, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər, vətəndaşlığı olmayan fiziki şəxslər tərəfindən istifadə edilən sular dövlət uçotuna alınmalıdır.

7. Dövlət uçotuna alınacaq su istifadəçilərinin siyahısı Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Fövqəladə Hallar Nazirliyi ilə (yerüstü və yeraltı sular bölmələri üzrə) razılaşdırılmaqla müəyyən edilir.

8. Suların dövlət uçotu sahəsində Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

yerüstü su resurslarının dövlət uçotunu aparır, Fövqəladə Hallar Nazirliyinin iştirakı ilə onların rejiminə və keyfiyyətinə müşahidəni təmin edir.

Yerüstü suların dövlət uçotu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsdiq etdiyi forma və müddətlərdə həmin Nazirliyin və digər təşkilatların dövlət şəbəkələrinin hidrometeoroloji mərkəzləri, rəsədxana və məntəqələri tərəfindən, məlumatların alınması üçün başqa vasitə və üsullardan (yerin süni peyklərindən, su obyektlərinin aviasiya, ekspedisiya və digər tədqiqat üsullarından) istifadə etməklə həyata keçirilir;

aidiyyəti müəssisə, təşkilat və idarələri suların dövlət uçotu materialları əsasında yerüstü su obyektləri və onların hidroloji rejimləri haqqında məlumatlarla, habelə müəssisə, qurğu və digər obyektlərin layihələşdirilməsi və tikintisi üçün tələb olunan hidroloji proqnozlarla təmin edir;

yerüstü suların çirklənmə səviyyəsi üzərində müşahidə və nəzarəti təşkil edir, bu sahədə ümumi dövlət xidmətini yaradır, aidiyyəti müəssisə, təşkilat və idarələri yerüstü suların çirklənmə səviyyəsi, habelə təsərrüfat fəaliyyətinin və hidrometeoroloji şəraitin təsiri nəticəsində yerüstü suların çirklənmə səviyyəsində ola biləcək dəyişikliklər barədə məlumatlarla müntəzəm olaraq təmin edir.

9. Suların dövlət uçotu sahəsində Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

yeraltı suların, onların istismar ehtiyatlarını nəzərə almaqla, dövlət uçotunu aparır, habelə Fövqəladə Hallar Nazirliyinin iştirakı ilə həmin suların rejiminə və keyfiyyətinə müşahidəni təmin edir.

Yeraltı suların dövlət uçotu, onların rejimi və keyfiyyəti monitorinqi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatlarının yeraltı suların kəşfiyyatı, onların rejiminin öyrənilməsi və balansı haqqında materialları əsasında, digər təşkilatların apardığı hidrogeoloji işlər nəticəsində alınmış məlumatlar istifadə olunmaqla Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təsdiq edilmiş forma və müddətlərdə həyata keçirilir;

Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyini və Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsini yeraltı suların uçotu üzrə ümumiləşdirilmiş məlumatlarla təmin edir;

aidiyyəti müəssisə, təşkilat və idarələri suların dövlət uçotu materialları əsasında yeraltı su obyektləri və onların hidrogeoloji rejimləri haqqında məlumatlarla, habelə müəssisə, qurğu və digər obyektlərin layihələşdirilməsi, tikintisi və istismarı üçün tələb olunan hidrogeoloji proqnozlarla təmin edir;
yeraltı suların çirklənmə səviyyəsi üzərində müşahidə və nəzarəti təşkil edir, aidiyyəti müəssisə, təşkilat və idarələri yeraltı suların çirklənmə səviyyəsi, habelə təsərrüfat fəaliyyəti və hidrometeoroloji şəraitin təsiri nəticəsində yeraltı suların çirklənmə dərəcəsində ola biləcək dəyişikliklər barədə məlumatlarla müntəzəm olaraq təmin edir.

10. Sudan istifadəyə dair dövlət statistik hesabat formaları və onların doldurma qaydaları Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən hazırlanır və Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilir.

11. Suların dövlət uçotu sahəsində Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi:

su obyektlərinin istifadəçiləri və su istehlakçıları tərəfindən su obyektlərindən götürülən və onlara axıdılan suların ilkin uçotunun düzgün aparılmasına və bu məqsədlə istifadə olunan avadanlıq və cihazların vəziyyətinə nəzarəti təmin edir;

Fövqəladə Hallar Nazirliyi ilə birlikdə su obyektlərindən götürülən və onlara axıdılan suların ilkin uçotunu aparmaq məqsədi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (yerüstü və yeraltı sular bölmələri üzrə) müvafiq formalar təsdiq edir və onları bütün su istifadəçilərinə çatdırır;

su obyektlərinin istifadəçiləri və su istehlakçılarının hesabatları əsasında respublika üzrə sudan istifadə edilməsinin uçotunu aparır;

su obyektlərinin istifadəçilərinin və su istehlakçılarının qeydiyyatını aparır;

Ekologiya və Təbii Sərvətlər Nazirliyini və Fövqəladə Hallar Nazirliyini suların istifadəsinin uçotu üzrə ümumiləşdirilmiş məlumatlarla təmin edir.

12. Mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq bütün sudan istifadə edənlər:

Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi tərəfindən hazırlanmış və Ekologiya və Təbii Sərvətlər Nazirliyi (yerüstü və yeraltı sular bölmələri üzrə) ilə razılaşdırılmış forma və müddətlərdə su obyektlərindən götürülən və onlara axıdılan suların ilkin uçotunu aparırlar;

bütün sugötürücü və suatıcı qurucularda götürülən və atılan suların həcmini ölçmək üçün ölçü cihazları (su sərfini və səviyyəsini ölçənlər, başqa hidrometrik avadanlıq) və tullantı sularının keyfiyyətini ölçən cihazlar quraşdırırlar;

Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş formalar və onların doldurulma qaydaları əsasında Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinə və Ekologiya və Təbii Sərvətlər Nazirliyinə suların istifadəsinə dair statistik hesabat təqdim edirlər.

su obyektlərindən götürülən və onlara axıdılan suların müəyyən olunmuş rejiminin pozulması və qəza nəticəsində zərərli maddələrin su mənbələrinə axıdılması hallarında Ekologiya və Təbii Sərvətlər Nazirliyinə (yeraltı və yerüstü sular üzrə) və Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinə təcili xəbər verirlər.